# Qazandığım uğurlara görə ulu öndərə borcluyam



Ömrünün 70-ci baharını yaşayan, həyatını incəsənətin heykəltəraşlıq, rəssamlıq və milli xalçaçılıq sahələrinə həsr edən, bir çox monumental heykəltəraşlıq nümunələri ilə sənətdə öz sözünü deyən əməkdar rəssam Şərif Şərifov bu gün qazandığı bütün uğurlara görə bir insana, ulu öndər Heydər Əliyevə borclu olduğunu deyir. Odur ki, indiyədək yaratdığı əsərlər içərisində ulu öndər Heydər Əliyevin heykəlini özünün şah əsəri hesab edir.

- Aylarla düşündüm. Mənim və mənim kimi minlərlə gəncin taleyində, inkişafında əsas rol oynayan bu dahi şəxsiyyəti necə yaradım ki, həm xalqına göstərdiyi qayğını və məhəbbəti, həm də taleyüklü anlarda xilaskarlıq missiyasını təsvir edə bilim, - deyə Şərif Şərifov ürəyinin dərinliyində yaşatdığı məhəbbəti belə ifadə etdi. Sonra bildirdi ki, dahi rəhbərlə onun çoxlu sayda görüşləri olub. Heydər Əliyevin Gəncəyə bütün tarixi səfərlərindən sonra onun yaradıcılığında yeni dövr başlayıb. Daha böyük əsərlər yaratmaq üçün ona stimul verib.

Heydər Əliyevlə ilk tanışlığı 1971-ci ildə Moskvada Ali Bədii-Sənaye İnstitutunun sonuncu kursunda oxuyarkən olub. Həmin illərdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev Moskvada olarkən burada təhsil alan azərbaycanlı tələbələrlə keçirdiyi görüş zamanı Şəriflə tanış olub və ona institutu bitirdikdən sonra Azərbaycana qayıtmağı tövsiyə edib. Şərif dahi insanın məsləhətini qəbul edərək ali təhsilli mütəxəssis kimi Gəncəyə qayıdıb və əmək fəaliyyətinə başlayıb. İlk yaradıcılığını görkəmli edib, dövlət xadimi Nəriman Nərimanovun heykəli üzərində sınayıb. "Mənim müasirlərim" silsiləsindən hazırladığı abidə müəllifə uğur gətirib və 1980-ci ildə dövrün ən nüfuzlu mükafatlarından olan Lenin komsomolu mükafatına layiq görülüb. Bu nailiyyətdən ruhlanan sənətkar illər keçdikcə daha da püxtələşib və yaradıcılığının əhatə dairəsini bir qədər də genişləndirib. Gəncə memarlıq məktəbinin keçdiyi yola nəzər salan Şərif Şərifov gördüyü işlərdə bu məktəbin ənənələrini qoruyub saxlamaqla ondan bəhrələnib və yeni-yeni əsərlər üzərində işləyib. "Mirzə Şəfi Vazeh", "Yeddi gözəl" abidələrini, Mir Cəlal Paşayevin, Əziz Əliyevin heykəllərini, "Həyat ağacı" abidəsini yaradıb.

Sonralar Şərif Şərifovda rəssamlığa və xalça toxuculuğuna da maraq artıb. Bu sahədə axtarışlar aparıb. Nəhayət, istəyinə nail olub. "Heydər Əliyev", "Heydər Əliyev və xalq", "Heydər Əliyev və İlham Əliyev" dekorativ xalçalarını toxuyub. Bundan başqa, Türk dünyasının görkəmli liderlərindən biri olan Süleyman Dəmirəlin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və başqalarının portretləri həkk olunmuş xalçalar toxuyub.

İndi Gəncədə mövcud olan bir çox abidələr Şərif Şərifovun adı ilə bağlıdır. Xüsusilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinə hazırlıq ərəfəsində onun maraqlı əl işləri olub. Gəncənin giriş qapısı olan Gəncə Qapıları Arxeologiya və Etnoqrafiya Muzeyi abidə kompleksindən şəhərə kimi olan məsafədə dahi söz ustasının "Xəmsə"sinə daxil olan əsərlərinin motivləri əsasında kompozisiyalar yaradıb. İndi qədim Nizami yurduna daxil olanlar ilk növbədə 7 kilometr məsafədə "Sirlər xəzinəsi", "Leyli və Məcnun", "Xosrov və Şirin", "İsgəndərnamə" və "Yeddi gözəl" əsərlərinə ucaldılmış kitabələrə maraqla baxırlar.

Çalışdığı bu müddət ərzində onun yaratdığı heykəltəraşlıq nümunələrinə nəinki respublikamızın muzey və gözəl guşələrində, eləcə də bir çox xarici ölkələrdə - Rusiya Federasiyasında, ABŞ-da, Türkiyədə, Fransada və Polşada maraqla baxılır. Qardaş Türkiyə Respublikasının Qars şəhərində yaradılan Heydər Əliyev parkındakı xiyabanda qoyulmuş heykəllərin hamısı Şərif Şərifovun əl işləridir.

Ancaq nə yaradırsa-yaratsın, Şərifi bir məsələ heç vaxt rahat buraxmayıb. Onun həyatına işıq salan Heydər Əliyevin monumental obrazını yaratmaq üçün axtarışlar edib. Məqsədi elə bir əsər yaratmaq olub ki, indiyə kimi təkrarı olmasın. Bu barədə özü belə deyir:

- Dəfələrlə görüşdüyüm, fəxr etdiyim və uzaqgörənliyinə heyran olduğum Heydər Əliyevin obrazını yaratmaq o qədər də asan deyildi. Lakin yaratmaq həvəsi tərəddüdlərimə üstün gəldi. Məndən əvvəl yaranmış əsərlərə müraciət etdim. Onun müxtəlif tədbirlərdəki çıxışlarını oxudum. Nəhayət, işə başladım. Çalışırdım ki, Heydər Əliyevi həm müdrik, uzaqgörən siyasətçi, həm də xalqını sevən əsl azərbaycanlı şəxsiyyət kimi təqdim edim. Deyilənə görə, indi Gəncənin mərkəzi meydanında ucaldılan bu abidə qarşısında dayanıb ona diqqətlə baxan hər kəs sanki ulu öndərlə canlı söhbət edir.



2012-ci ildən Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü olan əməkdar rəssam Şərif Şərifov əvvəlki kimi, yenə də gənclik həvəsi ilə işləyir. İndi onu axtaran şəxsi emalatxanasında tapar. Burada isə iş çoxdur. Cavad xanın, Nuru paşanın at belində heykəlləri, əlində qopuz tutmuş Dədə Qorqudun, eləcə də dahi Azərbaycan şairi Nizami Gəncəvinin yarımçıq işlənmiş heykəl eskizləri var. Şərif Şərifov deyir ki, arzum bu işləri başa çatdırmaq və hazır əsərləri Gəncənin müxtəlif guşələrində görməkdir. Bu əsərlərlə o, gündən-günə gözəlləşən Gəncəyə öz töhfəsini vermək arzusundadır.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**